https://doi.org/10.59849/3006-1342.2026.2.20
UOT 94

*Nərgiz Aydın qızı Rəsulova*
*Gəncə Dövlət Universiteti,*
*AMEA Gəncə Bölməsi Diyarşünaslıq İnstitutu*
*Tarix şöbəsinin müdiri,*
*Tarix üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: nararasulova@bk.ru*
*ORCID ID: 0009-0003-8622-5605*

# FRANSA "ON İLLİK" KONSULLUQ DÖVRÜNDƏ

*Fransa Direktoriyası (1794–1799) dövründə ölkədə siyasi böhran dərinləşdi, icraedici hakimiyyət gücləndi, hərbi məğlubiyyətlər və daxili qarışıqlıq sistemi zəiflətdi. Bu vəziyyət burjuaziyanı və siyasi elitanı güclü hakimiyyət axtarmağa sövq etdi və nəticədə Napoleon Bonapartın iştirakı ilə 18 Brümer çevrilişi həyata keçirildi. Direktoriyanın devrilməsi ilə Konsulluq rejimi yaradıldı və VIII il Konstitusiyası qəbul edildi. Yeni sistem formal olaraq respublika prinsiplərini saxlayırdı, lakin real hakimiyyət birinci konsul Napoleonun əlində cəmləşmişdi. Senat, Tribunat və Qanunverici korpus kimi institutlar mövcud olsa da, onlar mərkəzləşdirilmiş hakimiyyətə tabe idi. Dövlət şurası qanunvericiliyin əsas icraedici orqanına çevrildi.*

*Konsulluq dövründə ümumi seçki hüququ formal şəkildə bərpa olunsa da, siyasi iştirak məhdudlaşdırıldı. Mətbuat üzərində nəzarət gücləndirildi, inzibati sistem prefektlər vasitəsilə mərkəzləşdirildi. Napoleon kilsə ilə münasibətləri tənzimləyərək onu dövlətə tabe etdi və sosial sabitliyi möhkəmləndirdi. Eyni zamanda maliyyə islahatları, Fransa Bankının fəaliyyəti və inflyasiyanın cilovlanması iqtisadi inkişafı sürətləndirdi. Xarici siyasətdə əldə edilən qələbələr Avropa koalisiyalarını zəiflətdi və Fransanın mövqeyini gücləndirdi. 1802-ci il plebisiti ilə Napoleon ömürlük konsul oldu və onun hakimiyyəti daha da möhkəmləndi. Konsulluq dövrü iqtisadi sabitlik və sosial rahatlıq yaratsa da, siyasi azadlıqların məhdudlaşdırılması ilə müşayiət olundu.*

*Açar sözlər:* Böyük Fransa inqilabı, Napoleon Bonapart, Direktoriya rejimi, konsulluq, hərbi işğallar

## *Giriş*

Fransada Direktoriya rejimi (1794-1799) bütün siyasəti ilə öz süqutunu hazırlayırdı. Qanunverici hakimiyyətin əksinə olaraq, icraedici hakimiyyətin fasiləsiz güclənməsi, ordudan idarəetmə aləti kimi istifadə edilməsi, generalların qüdrətinin yüksəlməsi–bütün bunlar hərbi diktaturanın yaranmasına gətirib çıxarırdı. 1799–cu ildə Fransa əleyhinə birləşmiş İngiltərə, Avstriya, Rusiya, İtaliya dövlətləri və Osmanlıdan ibarət koalisiyanın hərbi zərbələrinə tab gətirmək iqtidarında olmayan Direktoriya ordusu sərhədlərə doğru geri çəkilirdi, fransızların başı üzərini yenə də xarici müdaxilə təhlükəsi almışdı [18, s. 284]. Hərbi məğlubiyyətlər Direktoriya rejiminin onsuz da laxlamış mövqeyini daha da sarsıdırdı.

**Bu dövr Fransa İnqilabının radikal mərhələsindən sonrakı keçid mərhələsi kimi xarakterizə olunur və ölkədə siyasi sabitliyin hələ tam formalaşmadığını göstərirdi. İqtisadi çətinliklər, inflyasiya və sosial narazılıqlar əhalinin müxtəlif təbəqələri arasında narazılığı artırırdı. Eyni zamanda, dövlət idarəçiliyində tez-tez baş verən dəyişikliklər və siyasi fraksiyalar arasındakı mübarizə mərkəzi hakimiyyətin zəifləməsinə səbəb olurdu.**

**Nəticədə, Fransada güclü və mərkəzləşdirilmiş hakimiyyətə ehtiyac daha da aktuallaşırdı.**

**Beləliklə, araşdırmanın əsas problemi Direktoriya rejiminin zəifləməsi fonunda Fransada hərbi-siyasi hakimiyyətin necə formalaşması və Napoleon Bonapartın bu prosesdə oynadığı rolun mahiyyətinin müəyyən edilməsidir. Tədqiqatın məqsədi isə Konsulluq dövrünün yaranma səbəblərini, siyasi strukturlarını və Fransada dövlət idarəçiliyində baş verən dəyişiklikləri təhlil etməkdir.**

**1. Fransa Direktoriyasının süqutu və Brümer çevrilişi.**

1799-cu ildə Parisdə demokratik əhval–ruhiyyəli inqilabçı respublikaçıların fəaliyyəti gücləndi. Hətta Yakobin klubunu yenidən bərpa etməyə cəhdlər göstərilirdi. Koalisiyanın cəbhələrdə qazandığı qələbələri royalistlərin yeni qiyamlarına və sui-qəsdlərinə təkan vermiş oldu. Xalq kütlələrini sakitləşdirmək, o cümlədən Burbonların restavrasiyasının qarşısını almaq və uğurlu hərbi siyasət aparmaq üçün iri burjuaziya, güclü hakimiyyətə ehtiyac duyur, dövlət çevrilişi və hərbi diktatura yardılması planı hazırlayırdı. [10, s.166] Onların fikrincə bu rola ən uyğun namizəd və bu məsuliyyətin öhdəsindən layiqincə gələ biləcək şəxs, Fransa respublikasının IV ili 13 vandemyerdə[1], yəni 5 oktyabr 1795-ci ildə baş vermiş royalistlər qiyamını darmadağın etməsilə "Vandemyer generalı" kimi məşhur olan general Napoleon Bonapart ola bilərdi. Direktoriya rejimini təkrar gözdən keçirmək tərəfdarı olanlar Bonapartla razılığa gələrək, onunla birgə əsaslı surətdə çevriliş planını işləyib hazırladılar [13, s. 218].

Çevrilişi həyata keçirmək üçün Qanunverici korpusun iclası xalq üsyanının baş verməsi bəhanəsilə, paytaxtın qərbində yerləşən aristokratik Sen–Klu rayonunda keçirildi. Respublikanın VIII ilinin 18 brümerində[2], yəni 1799-cu il noyabrın 9 Qanunverici korpusu qoşunları ilə əhatə edən Napoleon Bonapart öncə Beş yüzlər şurasına konstitusiyada dəyişiklik edilməsi təklifi ilə çıxış etsə də, onu "Rədd olsun tiran!" qışqırıqları ilə qarşıladılar. O zaman əsgərlər zala daxil olaraq, Direktoriyanın buraxılması və hakimiyyətin üç konsula verilməsi haqqında qərar qəbul edilməsinə nail oldular [8, s. 304]. Respublikanın VIII ilinin 20 brümerindən 3 nivozunadək,[3] yəni 1799-cu ilin 11 noyabrından dekabrın 24-də VIII il Konstitusiyası qəbul edilənədək olan dövrdə vəzifələrini yerinə yetirən müvəqqəti konsullar elə ilk iclasda, prezidentin seçkili olmaması, yəni onun vəzifələrinin konsulların hər birinin bir gün ərzində növbə ilə yerinə yetirməsi haqqında qərara gəldilər. Müvəqqəti konsulluq dövründə iclasa sədrlik etmək əlifba sırasına görə birinci iclasa konsul Bonaparta, ikinci digər konsul Roje Dükaya, üçüncü isə konsul Siyesə həvalə edildi.

Çevriliş günü müvəqqəti Konsulluğun təsis edilməsi haqqında verilən dekretə görə Qanunverici korpusun iclası dayandırıldı və onun iki palatasının (ağsaqqallar Şurası və beşyüzlər Şurası) hər biri, dəyişikliklər planının işlənib hazırlanması üçün 25 nəfər üzvündən ibarət komissiya seçməli idi. Dəyişikliklərin isə III il (1795-ci il) konstitusiyasına daxil edilməsi nəzərdə tutulurdu. Nəhayət, 1799-cu il dekabrın 13-də bu məqsədlə yaradılmış iki qanunvericilik komissiyası tərəfindən hazırlanmış Konstitusiya layihəsi sonralar, sistematik nizamla yerləşməmiş 95 maddədən ibarət VIII il konstitusiyasına çevrildi. Generalın böyük nüfuzu onun təşəbbüsünün tam uğur qazanmasını təmin etdi. Belə ki, Konstitusiya böyük səs çoxluğu ilə qəbul edildi (3 milyon lehinə, 1562 əleyhinə səs). Sənədin ən mühüm müddəaları Bonapart tərəfindən diktə edilmişdi [4, s. 654-656].

---

[1]Böyük Fransa inqilabından sonra 5 oktyabr 1793-cü ildə Milli Konvent tərəfindən verilmiş dekretlə Fransada tətbiq olunan təqvim. Fransa respublikaçı təqvimi 1 yanvar 1806-cı ildə Napoleon Bonapart tərəfindən ləğv edilmişdir. Təqvim hazırlanmasında məqsəd dini xristian təqvimi yerinə ateist və materialist təqvim yaratmaq olmuşdur. Təqvimdə Fransa inqilabının birinci ili - 1792-ci il era başlanğıcı elan edilir və xristianlıqla başlanan era isə ləğv edilmiş olunurdu. İllər 1792-ci ilin 22 sentyabrından başlayaraq hesablanmağa başlanırdı. Hər bir ay isə təbiət hadisələrinə müvafiq xüsusi adlarla adlandırılmışdır. Vandemyer (22 sentyabr - 21 oktyabr) - üzüm yığımı ayı.

[2]Brümer (rf. *Brumaire*) - II ay, (22 oktyabr - 20 noyabr) - dumanlı ay.

[3]Nivoz (fr.*Nivôse*) - IV ay, (21 dekabr - 19 yanvar) - qar yağan ay.

2. **Konsulluq rejimi və Napoleonun mərkəzləşdirilmiş hakimiyyəti.**

VIII il Konstitusiyasının qüvvəyə minməsindən (17 fevral 1800–cü il) Senatın Napoleon Bonaparta ömürlük konsulluq verilməsi məsələsi ilə bağlı plebisitin nəticələrini rəsmi olaraq elan etdiyi 2 avqust 1802-ci ilə qədər olan dövr Fransa tarixinə On illik konsulluq kimi daxil olmuşdur [16, s. 42].

Yeni konstitusiya "təxirə salınmadan fransız xalqının təsdiqinə" verilməli idi. Bu ümumxalq səsverməsinin, yəni plebisitin uğurla keçirilməsini təmin etmək üçün vətəndaşları açıq yazılı səsvermə yolu ilə tək–tək səs verdirmək qərarına gəldilər. Hər bir kommunada konstitusiyanı qəbul edən yaxud qəbul etməyənlər üçün siyahılar çıxarılırdı. Lakin səsvermə hər yerdə eyni vaxtda və təcili keçirilmədi, belə ki, Paris frimerin[4] sonunadək, departamentlər isə bütün nivoza ərzində səs verdilər. Və o vaxt müddətində Bonapart müxtəlif üsullarla ictimai fikir formalaşdırmağa imkan tapdı. Plebisitin başa çatmasından xeyli qabaq nəşr edilmiş 24 dekabr (3 nivoza) 1799-cu il qanunu ilə konstitusiya işə salındı və konsullar 25 dekabr (4 nivoza) qanunu ilə öz vəzifələrinin icrasına başladılar. Beləlıiklə də, seçicilərin əksəriyyəti artıq fəaliyyət göstərən konstitusiyaya öz rəylərini bildirməli olurdular [11, s. 20-30].

1799-cu il Konstitusiyası respublika idarəetmə formasını təsbit etdi, lakin bu idarəetmə Bonapartın təkhakimiyyəti ilə uzlaşdırılmışdı. Siyasi rejimin xüsusiyyətləri, eləcə də Trubinat, Senat və konsullar kimi dövlət qurumlarının adları baxımından bu respublika Konvent dövrünün dövlət quruluşundan daha çox Sezar və Oktavian dövrünün *Respublica*sını xatırladırdı [9, s. 87].

3. **Daxili islahatlar, xarici siyasət və Konsulluq dövrünün nəticələri.**

Respublikanın VIII ilində qəbul edilmiş konstitusiyaya əsasən On illik Konsulluq dövründə Fransada Qanun layihəsi yeni sistemin daha çox aktiv orqanı olan Dövlət şurası tərəfindən hazırlanır və sonra Tribunat və Qanunverici korpusa təqdim edilirdi. Qanun layihələrinin və mərkəzi idarələrin təlimatlarının redaktə edilməsi həvalə edilmiş olan Dövlət şurası, mübahisəli şəraitdə konsulların hökm mətnlərini hazırlayır, eyni zamanda vəzifəli şəxslərin məhkəməyə verilməsi məsələsini həll edirdi. Bundan başqa, ona qeyri–müəyyən və təhlükəli səlahiyyət, konsulların tələbi ilə "qanunların mənasını şərh etmək" tapşırılmışdı. Demək, göründüyü kimi Dövlət şurası Bonapartın siyasətinin başlıca aləti idi.

1800-cü il konstitusiyasına uyğun olaraq, Siyes, Roje Dyüka, Kambaseres və Lebryön inqilab işinə dəyərli xidmət göstərmiş layiqli insanlardan Müdafiə Senatının əksəriyyətini təşkil edəcək vətəndaşların siyahısını tərtib etmişdilər. Daha sonra kooptasiya[5] yolu ilə Senatın tərkibi qanunla müəyyən edilmiş saya–60 üzvə çatdırıldı. Bu ikinci kateqoriyaya isə əksərən daha az tanınmış insanlar düşdülər. Senat isə dərhal Qanunverici korpusun 300 və Tribunatın isə 100 üzvünü seçdi.

Üzvləri Senat tərəfindən beş il müddətinə təyin edilən və yenidən seçilə bilən Tribunat, yaşı 25–dən yuxarı olan 100 nəfərdən ibarət idi. Respublikanın hər departamentindən heç olmazsa bir nəfər təmsil olunduğu Qanunverici korpusun, yuxarıda göstərilən qayda ilə seçilən və təkrar seçilə bilən, yaşı 30–dan yuxarı olan 300 nəfər üzvü var idi. Tribunat qanun layihələrini müzakirə edir, onları qəbul yaxud rədd edir və qərarlarının səbəblərini izah və müdafiə etmək üçün öz mühitindən üç nəfər nümayəndəni Qanunverici korpusa göndərirdi. Qanunverici korpus hökumət nümayəndələri və dövlət müşavirlərinin hesabatını dinləyir və gizli səs vermə ilə qanun layihələrini səsə qoyurdu. Beləliklə də, Qanunverici korpusun sessiyası hər cürə mübahisə və müzakirəsiz cəmi dörd ay davam edirdi. Sessiyaların ara verdiyi dövrdə isə Tribunatın seçdiyi daimi komissiyalar fəaliyyət göstərirdi.[12, s.73-78]

[4] Frimer (fr. *Frimaire*) - III ay, (21 noyabr - 20 dekabr) - şaxta ayı

[5] Kooptasiya (lat. *cooptatio* - "əlavə seçim") - seçkili orqanın tərkibinə yeni üzvlərin və ya namizədlərin, əlavə seçkilər keçirilmədən, həmin orqanın öz qərarı ilə daxil edilməsi.

21 yaşına çatmış kişilər üçün ümumi seçki hüququ bərpa edildi. Konstitusiyada əmlak senzinin tətbiqi nəzərdə tutulmurdu; yalnız seçicinin müstəqil statusa malik olması və müəyyən müddət ərzində eyni yaşayış yerində məskunlaşması (oturaqlılıq senzi) şərt kimi göstərilirdi. Lakin sıravi seçicilər yalnız dövlət vəzifələrinə namizədlərin siyahılarının tərtib edilməsində iştirak edə bilərdilər.

Konstitusiyada formal olaraq hakimiyyət bölgüsü prinsipi saxlanılsa da, faktiki səlahiyyətlər hökumətə verilmişdi. Napoleonun fikrincə, yalnız hökumət ümummilli maraqları ifadə etməyə qadir idi. VIII il konstitusiyasına əsasən icraedici hakimiyyət on il müddətinə təyin edilmiş və istənilən qədər yenidən Senat tərəfindən seçilmək hüququna malik olan üç konsula həvalə edilmişdir: birinci konsul – Bonapart, ikinci – Kambaseres, üçüncü – Lebryon. Faktiki olaraq bütün hakimiyyət, 1791–ci il konstitusiyasına əsasən XVI Lüdovukun malik olduğundan da geniş səlahiyyətləri olan birinci konsulun - Napoleon Bonapartın əlində cəmləşmişdi [7, s. 195]. Konstitusiyanın 41 və 42-ci maddələrində deyilirdi: "Qanunları birinci konsul elan edir və o, öz rəyinə görə Dövlət şurası üzvlərini, nazirləri, səfirləri və xarici işlər idarəsinin digər mühüm müvəkkillərini, ordu və donanma zabitlərini, yerli idarələrin üzvlərini və məhkəmə idarələrinin hökumət komissarlarını təyin edir və dəyişdirir. O, sülh məhkəməsinin hakimləri və kassasiya məhkəməsinin üzvləri istisna olmaqla, bütün mülki və cinayət tribunallarının hakimlərini təyin edir, lakin azad edə bilməz. Hökumətin digər fəaliyyət sahələrində ikinci və üçüncü konsullar məşvərətçi səsə malikdirlər; onlar öz iştiraklarını təsdiqləmək üçün bu hüquqi aktlara dəlalət edən protokolları imzalayırlar". Birinci konsulun ən mühüm sərəncamları qanun qüvvəsi qazanırdı. Beləliklə, Bonapartın iradəsi heç bir qanuni maneə ilə rastlaşmırdı.

On illlik Konsulluq, Direktoriyanın bacarmadığı kilsənin dövlətdən ayrılması məsələsini asanlıqla və uğurla praktikada həyata keçirdi. Bonapart məqsədlərinə çatdı. O, Fransada Katolik Kilsəsi üzərində nəzarəti bərqərar etdi və onun dəstəyini təmin etdi. Ruhanilər Fransa dövlətinə sədaqət andı içməli və onun təşəbbüslərinin uğuru üçün dua etməli idilər. Hökumət yepiskoplar təyin etmək və ictimai ibadət şərtlərini tənzimləmək hüququnu əldə etdi. Yepiskoplar və keşişlər dövlət qulluqçuları oldular. Həmçinin, azadfikirlilərin arzusuna uyğun olaraq respublika təqvimini saxlamaqla yanaşı, ruhanilər əleyhinə qəbul edilmiş ən kəskin qanunları ləğv etməklə yenidən din azadlığını elan etdi.

Mühacirlərə gəldikdə isə, öz vətəninə silah qaldırmaq üçün onu könüllü tərk edənlərin Fransaya girişi əvvəlki tək qadağan olunsa da, qovulmuş, sürgün edilmiş yaxud da müxtəlif növ proskripsiyalar[6] məruz qalmış digər fransızlara nisbətdə onların aqibətini yüngülləşdirən müxtəlif tədbirlər görməklə plebisit ərəfəsində hökumət bütün partiyaları öz tərəfinə çəkə bildi [5, s. 265-266].

Hələ ki, dövri mətbuatın azad olmasına baxmayaraq, Bonapart hər dəqiqə ictimai fikirin oyanmasından və ona qarşı yönəlməsindən ehtiyat edirdi. O, 1800–cü il 17 yanvar (VIII il 27 nivoza) fərmanı ilə 13 qəzet istisna olmaqla, Parisdə dərc edilən bütün siyasi qəzetlərin nəşrini dayandırdı, mətbuatda cuzi müxalif əlamətlər qadağan edildi.

VIII il konstitusiyasına əsasən respublika ərazisi departamentlərə və kommunal mahallara bölünür, həmçinin inzibati heyəti icraedici hakimiyyət təyin edirdi. 28 plüvioz[7] qanununun 3-cü maddəsində deyilirdi ki, "inzibati hakimiyyət bir prefektə tapşırılır". Və hər dairədə ona tabe olan suprefekt olmalı idi. Bu qanun bu cür əsaslandırılırdı: "Bir nəfər idarə etməli, çoxluq isə müzakirə etməlidir". Prefektlər, suprefektlər, ali və mahal şuralarının üzvləri, merlər, onların köməkçiləri və bələdiyyə müşavirləri birinci konsul tərəfindən, yerli idarələrin məmurları isə prefektlər tərəfindən təyin edilirdi. Mübahisəli işlərin araşdırılması

[6]Qədim Romada: siyasi cinayətkarların camaat qarşısında qanundan xaric elan edilməsi.
[7]Plüvioz (fr.*Pluviôse*) - v ay, (20 yanvar - 18 fevral) - yağışlar ayı

üçün hər departamentdə, birinci konsulun təyin etdiyi, prefektura şurası adı ilə departamentlərə görə beş, dörd yaxud da üç üzvdən ibarət tribunal təsis edilmişdi. Prefekt bu tribunala sədrlik etmək hüququna malik idi və səslərin bölünməsi zamanı onun səsi üstün gəlirdi. Beləliklə, öncə inzibati hakimiyyəti məhkəmə hakimiyyətindən ayıran qanun yaradıcıları sonradan despotizmin maraqlarına uyğun olaraq bu iki səlahiyyəti bir – birinə qarışdırdı [12, s. 322].

Hələ o dövrdə konsul sarayı olmadığına görə Bonapart 1800-cü il fevralın 19-da Tyuilri sarayına köçdü. Napoleon qismən respublika mərasimlərini saxladı və gündəlik həyatda əvvəlki tək yalnız "vətəndaş" xitabı istifadə edilirdi. Lakin respublika adətləri ilə yanaşı artıq yeni adətlər də meydana çıxmağa başlayırdı, yaxud daha dəqiq desək, "köhnə idarə - üsulunun" dəbləri qayıdırdı. Bonapart aristokratlar haqqında öz fikrini belə ifadə etmişdi: "Yalnız bu insanlar vəzifə ifa etməyi bacarırlar". O özünün gələcək sarayı üçün yeni insanları məhz köhnə idarə – üsul nümayəndələri içərisindən seçməyə başlayırdı [1, s. 398].

Bonapart respublikaçılara nifrət edir və başqa partiyalardan daha çox onlardan qorxurdu. Buna görə də Bonapart onların bəzilərindən qurtulmaq və digərlərini qorxutmaq üçün yaranmış əlverişli vəziyyətdən istifadə etməyə tələsirdi. 1801-ci ilin yanvarın 4-də Dövlət Şurası tərəfindən Senata təqdim edilən "hökumət aktı" "konstitusiyanın müdafiəsi üçün zəruri tədbir" kimi Senat tərəfindən bəyənilərək, yanvarın 8-də elan edilən hüquqi aktla 130 respublikaçı proskripsiyaya[8] məruz qaldı. Bonapartın respublikaçılar əleyhinə gördüyü tədbirlər bununla bitmirdi [6, s. 4262]. IX il 17 nivoza, yəni 7 yanvar 1801–ci il qətnaməsinə əsasən, Fransa hüdudları daxilində, Sena və ona bitişik departamentlərdə yaşamaq qadağası qoyulmuş, öz demokratik düşüncə tərzi ilə məşhur olan 52 nəfər vətəndaş polis nəzarətinə verilmişdi. Respublikaçılardan Şomett, Marat və Baböfün dul qalmış arvadları mühakiməsiz həbs edilmişdilər. Hətta bir neçə nəfər qanunsuz olaraq edam edildi. Beş nəfər – Şevalye, Veyser, Metj, Ember və Şapel əslində polis tərəfindən təşkil edilmiş olan xəyali sui – qəsddə iştirak etməkdə günahlandırılaraq, hərbi məhkəməyə verildilər və Qrenel vadisində güllələndilər. Dörd görkəmli respublikaçıya-Arenaya, Serakkiyə, Topino-Lebrönə və Demervilə Sedan departamenti cinayət məhkəməsi tərəfindən, Bonaparta qarşı kinli fikirlərinə görə günahlandırılaraq ölüm hökmü verilmişdir. Onların, IX ilin 10 plüviozunda boynu vuruldu.

Bir sıra tarixçilərin müddəalarına baxmayaraq, Konsulluq dövründə Fransada ictimai qayda–qanun təmin edilməmişdi. Direktoriya dövründə olduğu kimi royalistlərin quldur dəstələri dördtəkərli minik arabalarını saxlayır, vətənpərvərləri öldürür, kəndlərdə varlı şəxslərin evlərini qarət edirdilər. Jandarmeriya, hərbi komissiyalar bu qarışıqlığa son qoya bilərdilər, lakin Bonapart fövqəladə məhkəmələrin təsis edilməsinə nail olmaq üçün bu ictimai narazılıqdan faydalanırdı. Bu məhkəmələr vasitəsilə o lazım gəldikdə nəinki royalist quldurlardan, hətta respublikaçı müxalifətdən də xilas ola bilərdi.

Tribunatda və Qanunverici korpusda az səs çoxluğu ilə keçən 1801–ci il 7 fevral qanunu hökumətə, hər bir uyğun bildiyi departamentdə cinayət məhkəməsinin iki üzvü və sədrindən və birinci konsul tərəfindən təyin edilmiş üç hərbi və iki mülki şəxsdən ibarət fövqəladə tribunal təsis etmək səlahiyyəti verdi. Bu məhkəmə, hökuməti narahat edən bütün cinayətlərə baxırdı və onun hökmləri səlahiyyət məsələləri istisna olmaqla, nə apellyasiya, nə də kassasiyaya aid deyildi. Beləliklə də, Bonapart öz mülahizəsinə görə hər departamentdə intiqamını almaq üçün özünəməxsus şəkildə inqilabi tribunal təşkil etməyi bacardı və o, həqiqətən də 32 departamentdə belə məhkəmələr təsis etdi [15, s. 298-301].

Siyasi sabitləşmə və hüquqi müəyyənlik XIX əsrin əvvəllərində Fransa iqtisadiyyatının yüksəlişinə kömək etdi. Napoleon inflyasiyanı cilovlaya bildi. Kağız pulların buraxılışı üzrə

[8] Qədim Romada: siyasi cinayətkarların camaat qarşısında qanundan xaric elan edilməsi.

inhisar dövlət nəzarəti altında fəaliyyət göstərən özəl bir qurum olan Fransa bankı vasitəsilə həyata keçirilirdi. 1803-cü ildə gümüş frank dövriyyəyə buraxıldı və kağız pula sərbəst şəkildə dəyişdirilə bildi. Diqqəti birbaşa vergi yığımından dolayı vergilərə (spirtli içkilər və tütün məmulatlarına aksiz vergiləri) yönəldən vergi islahatı büdcə gəlirlərini artırdı. Dövlət borc öhdəlikləri üzrə faiz ödənişləri bərpa edildi və bu da ictimaiyyətin və sərmayədarların hökumətin iqtisadi siyasətinə inamını artırdı. Maliyyə sabitliyinin təmin olunması Bonapartın hakimiyyəti dövründə Fransada başlanmış sənaye inqilabının mühüm ilkin şərtlərindən biri oldu.

Konsulluq dövründə daxili siyasətdə əldə olunan uğurlar xarici siyasətdəki nailiyyətlərlə də möhkəmləndirilirdi. Prussiya və Rusiyanın neytrallığını təmin edən Napoleon, 1801-ci ildə Avstriyanı hərbi məğlubiyyətə uğratdı və Avstriyanı, 1802-ci ildə isə Böyük Britaniyanı Fransa ilə sülh müqavilələri bağlamağa məcbur etdi [2, s. 89-90]. Beləliklə, Avropa dövlətlərinin Fransaya qarşı yönəlmiş düşmən koalisiyası artıq mövcud deyildi. Bonapartın müstəsna hərbi və diplomatik uğurları, birinci konsulun hakimiyyətini on illik müddətlə məhdudlaşdıran konstitusiyada liberallığa zidd dəyişikliklər üçün ictimai fikir hazırlayırdı. 1802-ci ilin may ayında fransızların Birinci Konsulun ömürlük hakimiyyətinin lehinə səs verdiyi plebisit keçirildi. Nəticələr rejimə artan ictimai dəstəyi əks etdirdi: 3,6 milyon seçici Napoleonu dəstəklədi və yalnız 8,3 min seçici ona etimad göstərməkdən imtina etdi. Referendumdan sonra Senat Konstitusiyaya dəyişiklik etdi. Napoleona varisini təyin etmək, sülh müqavilələrini təsdiqləmək və ölüm hökmlərini yüngülləşdirmək hüququ verildi.

Napoleon Bonapart ömürlük konsul olduğuna əmin olduqdan sonra, əvvəllər imtina etdiyi, "özünə varis təyin etmək" hüququnu mənimsəmək qərarına gəldi. Buna görə VIII il konstitusiyasına mühüm dəyişikliklər etmək lazım gəlirdi və o, bundan istifadə edərək konstitusiyada elə əsaslı düzəlişlər etdi ki, tarixçilərin tez-tez X il konstitusiyası adlandırdıqları, tamamilə yeni konstitusiya alındı. 1789 – cu il hesabı ilə beşinci olan bu yeni konstitusiya, respublikanın adını və bir neçə formasını saxlamaqla faktiki olaraq respublika idarə-üsulunu aradan qaldırırdı [3, s. 98-99]. Bütün bunlarla Bonapartın hakimiyyəti aşağıdakıları qazandı. Hər şeydən öncə o, öz mövqeyini bir növ varisliklə möhkəmləndirdi: birinci konsula ölümündən sonra onun varisi olacaq vətəndaşı Senata təqdim etmək hüququ verilmişdi. Əgər Senat birinci və ikinci namizədi qəbul etmirdisə, o zaman üçüncü qəti surətdə təsdiq edilirdi. Senat hər cürə müstəqillikdən məhrum edilmişdi. O, yenə də əvvəlki kimi çıxmış üzvlərinin yerini, departament kollegiyalarının təqdim etdiyi siyahıya görə, birinci konsulun seçdiyi və göstərdiyi üç namizəd sırasından, kooptasiya yolu ilə doldurmalı idi. Məhz hazırda 14 vakansiya olduğu vaxtda, Senatda, konstitusiyanın tələb etdiyi 80 üzv əvəzinə 66 üzv var idi. Bundan başqa, birinci konsula xüsusi hökumət nümayəndələrindən əlavə 40 senator təyin etmək və Senatın üzvlərinin sayını 120 çatdırmaq səlahiyyəti verilmişdi. Senatı özündən, belə tam asılı qoymaqla yanaşı Bonapart eyni zamanda onun səlahiyyətlərini genişləndirirdi: bundan belə, Senat konstitusiyanı yalnız şərh etmirdi, o həm də "konstitusiyada nəzərdə tutulmayan, lakin onun düzgün fəaliyyəti üçün zəruri olan, hər şeyi" qanuna salırdı. Ona Qanunverici korpusu və Tribunatı ləğv etmək hüququ verilmişdi [14, s. 343].

*Nəticə*

**Napoleonun böyüklüyü onun yeni Avropa insanının duyğu və düşüncələrinə, arzu və istəklərinə cavab verə bilməsində idi. Xüsusilə imperatorluğunu elan etməzdən əvvəl respublikaçılıq, millətçilik və bu kimi ideyaların tərəfdarları Napoleonun şəxsiyyətində həmin prinsiplərin qələbəsini və yüksəlişini görürdülər. Halbuki o, Avropanın iki nəslini qan içində qoymuş, döyüş meydanlarında həlak olan milyonlarla əsgərin taleyinə görə məsuliyyət daşıyırdı. Lakin bütün bunlara baxmayaraq, Napoleon XIX əsrə öz möhürünü vurmuş və dövrünün ən böyük şəxsiyyətləri tərəfindən sonsuz təriflərə layiq**

**görülmüşdür. Məsələn, Lüdviq van Bethoven sonradan bu qərarından geri çəkilsə də, Üçüncü Simfoniyası** "Eroika"nı **ona həsr etmişdi. Georq Vilhelm Fridrix Hegelin gözündə Napoleon "Dünyəvi Şüurun təcəssümü" idi. İohann Volfqanq fon Höte də onun heyranlarından biri idi.** Napoleonun stolüstü kitablarının müəllifləri Şarl Lui de Monteskyö, Adam Smit və xüsusilə Jan Jak Russo idi. Bu parlaq artilleriya zabitinin sonda yakobinçi olmaqdan başqa seçimi yox idi. Lakin mülki siyasətçilərin ambisiyaları, ehtirasları və bacarıqsızlıqları onun öz taleyini özü müəyyən etməsinə səbəb oldu [15, s. 387-389].

Belə qəti əqidəli bir yakobinçinin sonradan Brümer çevrilişi vasitəsilə nümayəndəli idarəetmə sisteminə son qoyması və varlı təbəqələrin dəstəyi ilə yeni bir siyasi quruluş yaratmağa çalışması izahı olduqca çətin olan bir hadisədir. Lakin Napoleonun 1815-ci ilin aprelində Benjamin Konstana verdiyi aşağıdakı izahatlar bu məsələyə müəyyən qədər aydınlıq gətirir [3, s. 99-101]: "Əgər konstitusiyalı idarəetmə vasitəsilə ölkəni idarə etmək mümkündürsə, nə xoş... Mən dünya imperiyası yaratmaq istəyirdim. Bunu həyata keçirmək üçün isə saysız-hesabsız qüvvələrə ehtiyacım var idi. Məsələ yalnız Fransanı idarə etməkdən ibarət olsaydı, konstitusiyalı idarəetmə daha münasib seçim ola bilərdi... Mənim yalnız bir məqsədim var: Fransanı yüksəltmək və ona ən münasib idarəetmə formasını vermək... Mən heç vaxt azadlığa nifrət etməmişəm; yalnız mənə mane olduğu zaman onu yolumdan kənarlaşdırmışam..."

**Napoleonun həyata keçirdiyi siyasət qısa müddətdə Fransada iqtisadi və sosial sabitliyin gözəçarpan dərəcədə bərpa olunmasına gətirib çıxardı. Xüsusilə onun imperatorluğunu elan etməsindən sonra respublikaçı qüvvələr Napoleona müxalif mövqe tutsalar da, terror dövrünün qorxularından uzaqlaşmış və maddi vəziyyəti yaxşılaşmış əhali arasında siyasi hüquqların məhdudlaşdırılmasına qarşı kütləvi narazılıq formalaşdırmaq mümkün olmurdu.**

ƏDƏBİYYAT


1. Ahmet Eyigil, Siyasi tarih (1789-1939). Ankara, 2005, 495 s.
2. Aulard A., *Fransa İnkılabının Siyasi Tarihi* (trc. N. Poroy), Ankara 1987, 100 s.
3. Aubry, Octave; «Napoleon'dan Ölmez Sayfalarn, çev. Fethi Yücel, M.E.B. Yayınları; İstanbul, 1964. s. 105.
4. Беркова К. «Процесс Людовика XVI» М., 2015, 312 стр.
5. Чандлер Д. Военные кампании Наполеона. Триумф и трагедия завоевателя. М.: Центрполиграф, 2011. 927 с.
6. "Fransa." (1993). *Büyük Larousse Ansiklopedisi* (Cilt 7, s. 4257–4264). İstanbul.
7. Gaxotte, Pierre; «Fransız İhtilali Tarihi» çev. Samih Tiryaki oğlu, Varlık Yayınlan 2. Baskı , İsta nbul 1969, s. 195 vd.
8. Манфред А. З. Наполеон Бонапарт. М., Мысль, 1987. 621 стр.
9. Новая история стран Европы и Америки XVI - XIX века. В 3 частях, под. ред. проф. А. М. Родригеса М., 2010, 238 стр.
10. «Новая история», под редакцией А. Л. Нарочницкого. Ч. I. , М. 1978,-719 стр.
11. Rıfat Uçarol, Siyasi tarih (1789-1994). Gözden geçirilmiş ve genişletilmiş dördüncü baskı, Filiz kitabevi, İstanbul, 1995, -892 s.
12. Sarıca , Murat; «Siyasal Tarih» İstanbul, 1983, 284 s.
13. Sorel, Albert; «Avrupa ve Fransız İhtilali» VII (2) çev. Nahid Sırrı Örik, MEB Yay., İstanbul 1956, s. 542.
14. Sieburg, Friedrich. «Napoleon (Die Hundert Tage), Dromer-Knaur, München 1966, -436 sei.
15. Toktamiş Ateş. Siyasal tarih (ortaçağdan ondokuzuncu yüzyilin sonlarina dek), İktisat fakültesi 1989, 409 s.

16. Тарле Е. В. Талейран Ш. М. «Наполеон», М., 1959, 107 стр.
17. Талейран. Мемуары. Ред. и статья Е. Тарле. М., 1959, 439 стр.
18. Виллар Ж. и К. «Формирование французской нации»., перевод с французкого О.В.Волкова, 1957. 335 стр.

УДК 94

*Наргиз Аядын кызы Расулова*
*Гянджинский Государственный Университет,*
*Гянджинское Отделение НАНА*

## ФРАНЦИЯ ВО ВРЕМЯ «ДЕСЯТИЛЕТНЕГО» КОНСУЛЬСКОГО ПЕРИОДА

*РЕЗЮМЕ*

*Ключевые слова:* Французская революция, Наполеон Бонапарт, Директория, консульство, военные оккупации

В период Директории во Франции (1794–1799) углубился политический кризис, усилилась исполнительная власть, а военные поражения и внутренние беспорядки ослабили государственную систему. Эта ситуация подтолкнула буржуазию и политическую элиту к поиску сильной власти, что привело к государственному перевороту 18 брюмера с участием Наполеона Бонапарта. После свержения Директории был установлен консульский режим и принята Конституция VIII года.

Новая система формально сохраняла республиканские принципы, однако реальная власть была сосредоточена в руках первого консула Наполеона. Несмотря на существование таких институтов, как Сенат, Трибунат и Законодательный корпус, они подчинялись централизованной власти. Государственный совет стал основным исполнительным органом законодательного процесса.

В период Консульства всеобщее избирательное право формально было восстановлено, однако политическое участие оставалось ограниченным. Усилился контроль над прессой, административная система была централизована через префектов. Наполеон урегулировал отношения с церковью, подчинив её государству и укрепив социальную стабильность. Одновременно финансовые реформы, деятельность Французского банка и сдерживание инфляции ускорили экономическое развитие.

Во внешней политике военные победы ослабили европейские коалиции и укрепили позиции Франции. В 1802 году плебисцит сделал Наполеона пожизненным консулом, что ещё больше укрепило его власть. Период Консульства обеспечил экономическую стабильность и социальный порядок, но сопровождался ограничением политических свобод.

UDC 94

*Nargiz Aydin Rasulova*
*Ganja State University,*
*Ganja Branch of ANAS*

FRANCE DURING THE "TEN-YEAR" CONSULAR PERIOD
*SUMMARY*

*Keywords:* French Revolution, Napoleon Bonaparte, Directory regime, consulate, military occupations

During the period of the French Consulate (1799–1804), established after the overthrow of the Directory through the coup of 18 Brumaire, France experienced significant political transformation. The Constitution of Year VIII formally preserved republican principles, but real power was concentrated in the hands of the First Consul, Napoleon Bonaparte.

Although institutions such as the Senate, the Tribunate, and the Legislative Corps existed, they were subordinate to centralized authority. The Council of State became the main executive body responsible for legislation. Universal suffrage was formally reinstated, but political participation remained limited. Press censorship was intensified, and the administrative system was centralized through prefects.

Napoleon also regulated relations with the Church, subordinating it to the state and thereby strengthening social stability. At the same time, financial reforms, the establishment of the Bank of France, and control of inflation accelerated economic development. Military victories in foreign policy weakened European coalitions and strengthened France's position.

In 1802, following a plebiscite, Napoleon became First Consul for life, further consolidating his power. Overall, the Consulate period brought economic stability and social order, but it was accompanied by a significant restriction of political freedoms.

***Daxil oldu: 17.06.2026-cı il***